## AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *MƏRKƏZİ BANKININ QƏRARI* |
| Qəbul edildiyi tarix | *28.10.2014* |
| Qeydiyyat nömrəsi | *24/1* |
| Adı | *"Poçt rabitəsinin milli operatoru tərəfindən tərtib edilən prudensial hesabatların forması, məzmunu və dövriliyinə dair Göstəriş"in təsdiq edilməsi barədə* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *12.11.2014* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *180.120.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *23201410280241* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *11.11.2014* |

Poçt rabitəsinin milli operatorunun maliyyə xidmətlərinə dair prudensial hesabatlılığı ilə əlaqədar Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti "Poçt haqqında" Azərbaycan Respublikası Qanununun 13-4.2-ci maddəsinə, habelə "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.17-ci və 48.1-ci maddələrinə əsasən

**QƏRARA ALIR:**

1. "Poçt rabitəsinin milli operatoru tərəfindən tərtib edilən prudensial hesabatların forması, məzmunu və dövriliyinə dair Göstəriş" təsdiq edilsin (əlavə olunur);
2. Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Göstərişin 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin;

**Sədr** Elman Rüstəmov

“Təsdiq edilmişdir”
Azərbaycan Respublikasının
Mərkəzi Bankı

Qərar № 24/1
“28” oktyabr 2014-cü il

# Poçt rabitəsinin milli operatoru tərəfindən tərtib edilən prudensial hesabatların forması, məzmunu və dövriliyinə dair

# GÖSTƏRİŞ

## 1. Ümumi müddəalar

1.1. Bu Göstəriş “Poçt haqqında” Azərbaycan Respublikası Qanununun 13-4.2-ci maddəsinə əsasən hazırlanmışdır və poçt rabitəsinin milli operatoru (bundan sonra - milli operator) tərəfindən tərtib edilən prudensial hesabatların (bundan sonra-hesabatlar) formasını, məzmununu və dövriliyini müəyyənləşdirir.

1.2. Hesabatlar maliyyə xidməti sahəsində milli operatorun təhlükəsizliyini və etibarlılığını, habelə onun qanunvericiliyə əməl etməsini müəyyənləşdirən zaman maliyyə vəziyyətinin qiymətləndirilməsinə, habelə fəaliyyəti haqqında məlumatlar bazası yaratmağa imkan verir.

1.3. Hesabatlar bu Göstərişə əlavə olunmuş cədvəl formalarında tərtib olunur. Hesabatların cədvəlləri bu Göstərişə uyğun olaraq doldurulur.

1.4. Hesabatlar elektron və kağız formada tərtib olunur. Hesabatlar bu Göstərişdə müəyyən edilmiş forma və qaydada Azərbaycan Respublikasının Mərkəzi Bankına (bundan sonra-Mərkəzi Bank) təqdim edilir. Hesabatlar milli operatorun baş direktoru, baş mühasibi və maliyyə xidmətinə məsul şəxsi tərəfindən imzalanır və möhürlə təsdiq olunur. Rüblük və illik hesabatlar həmçinin milli operatorun Müşahidə Şurasının sədri tərəfindən imzalanır.

## 2. Hesabatların doldurulması və təqdim olunması qaydaları

2.1. Hesabatların doldurulması ilə bağlı izahat hər bir cədvəlin tələblərinə riayət etməklə tərtib edilir və hər bir sətrin doldurulması (rəqəmlə, hərflə və ya cümlələrlə) yalnız bu Göstərişdə müəyyən edilmiş qaydalara uyğun aparılır.

2.2. Titul vərəqi hesabatlarla birlikdə təqdim edilir.

2.3. Hesabatlar hər təqvim ayının son təqvim gününə (hesabat tarixi adlanan gün) milli operatorun əməliyyat günü bağlandıqdan sonra tərtib edilir. Əgər həmin ayın son təqvim günü qeyri-iş gününə düşərsə, hesabat ayının son əməliyyat günü bağlandıqdan sonra tərtib edilir və “Hesabat tarixi" sətrində hesabat ayının son təqvim günü göstərilir. Əməliyyat gününün bağlanması və ya milli operatorun (filial və şöbələrinin) iş gününün dayandırılması mühasibat uçotu hesablarında qeydlərin (mühasibat köçürmələrinin) dayandırılması deməkdir. Lakin, hesabat tarixində əməliyyat gününün bağlanmasından sonra aparılan maliyyə əməliyyatları hesabat tarixinə aid edilərsə, bu zaman əməliyyatlar hesabat tarixi üçün milli operatorun hesabat gününün bağlanması anına qədər aparıldığı kimi göstərilir. Hesabat dövrünə həmçinin, bunlar da daxil edilir: hesablanmış məbləğlərin dürüstləşdirilməsi, hesabat tarixində müvafiq hesablarda gözləmə rejimində olan sətirlərin mədaxil edilməsi, ayın, rübün və ya ilin sonu üçün digər dürüstləşdirmə köçürmələri. Bunlarla bərabər, hesabat tarixinə əməliyyatları dayandırdıqdan sonra milli operator tərəfindən qəbul edilən və hesabat tarixinə müştərilərin fərdi hesabına yazılmayan müştərilərin hesabına daxilolmalar -“gecikmiş poçt əmanətləri” növbəti hesabat dövründə əks etdirilir.

2.4. Hesabatlardakı bütün rəqəmlər min manatla qeyd edilir. Xarici valyutada olan rəqəmlər hesabat tarixi üçün Mərkəzi Bankın rəsmi məzənnəsi üzrə manat ekvivalenti ilə əks etdirilir.

2.5. Əgər hər hansı bir göstərici sıfıra bərabərdirsə, hesabatlarda bu göstərici üzrə mütləq “0” (sıfır) işarəsi qoyulur. Hesabatlarda amortizasiya istisna olmaqla, mənfi qiymətin göstərilməsinə yol verilmir. Mənfi kəmiyyətə həmçinin “gəlir”, “mənfəət” və ya “zərər” və s. anlayışları olan sətirlər də malik ola bilərlər. Mənfi kəmiyyətli tutulan məbləğ və rəqəmlər hesabatlarda mötərizədə göstərilir.

2.6. Bu Göstərişdə başqa hal nəzərdə tutulmayıbsa, heç bir sətri boş saxlamaq olmaz. Hər bir sətirdə ya məbləğ göstərilir (mötərizədə və ya mötərizəsiz), ya sıfır yazılır və ya “X” işarəsi olduğu halda heç bir qeydiyyat aparılmır.

2.7. Hər bir cədvəlin doldurulmasına dair izahat müvafiq cədvəllərin nömrələrinə uyğun verilir.

2.8. Hesabatlar hesabat tarixindən sonrakı ayın 10-dan gec olmayaraq, illik hesabatlar isə növbəti ilin yanvar ayının 15-dən gec olmayaraq Mərkəzi Banka təqdim edilir.

## CƏDVƏL U_1. Titul vərəqi (Əlavə 1)

1. “**Hesabatın başa çatdırılması tarixi**” sətrində hesabatın Mərkəzi Banka göndərildiyi tarix göstərilir.

2. “**Əlavə olunan vərəqlərin sayı**” sətrində hesabatlara aid olan formaların vərəqlərinin sayı göstərilir.

3. Titul vərəqində göstərilən şəxslərin adları, soyadları və atalarının adları tam göstərilir. Titul vərəqi həmin şəxslərin özləri tərəfindən imzalanır, müvəqqəti olmadıqları hallarda hesabatı onları əvəz edən şəxslər imzalayır (onların adları, soyadları və atalarının adları göstərilməklə). Hesabatı imzalayan şəxslər onun dəqiqliyi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar. Hesabatı imzalayan şəxslər eyni zamanda həmin “**hesabatı tərtib edən**” şəxslər olmamalıdır. Hesabatların tərtib edilməsi məqsədilə məsul şəxs müəyyən edilir.

4. “**Hesabatı tərtib edən**” sətrində bilavasitə hesabatları tərtib etmiş vəzifəli şəxsin tam adı, soyadı, atasının adı, onun əlaqə telefonu, faks nömrəsi, elektron poçt ünvanı (e-mail) göstərilir və onun şəxsi imzası qoyulur.

5. Hesabatlar müəyyən edilmiş cədvəllərin eyni sayda səhifələrindən ibarət olmalıdır. Əgər milli operator tərəfindən bu Göstərişlə nəzərdə tutulmuş əlavə məlumatlar (dürüstləşdirmələrin qısa şərhi) təqdim edilirsə, onda bu məlumatlar ayrıca vərəqlərdə göstərilir və onların sayı titul vərəqində göstərilmiş (Əlavə: ____ vərəq) sətrə daxil edilmir.

## CƏDVƏL U_2. Ümumi məlumatlar (Əlavə 2)

1. “**Milli operatorun ünvanı**” - burada baş ofisinin tam ünvanı göstərilir. “Küçə” sözü olan sətirdə kəsr (/) işarəsindən sonra binanın nömrəsi göstərilir.

2. “**Rabitə növləri**” - burada milli operatorun baş ofisində yerləşən faksların, telefonların, teleksin nömrələri, internet ünvanı, elektron poçt ünvanı, habelə hüququ ünvanının poçt kodu göstərilir.

3. “**Filialların sayı**” - burada milli operatorun filiallarının sayı əks etdirilir.

4. “**Şöbələrin sayı**” - burada milli operatorun şöbələrinin sayı əks etdirilir.

5. “**ATM-lərin sayı**”- burada milli operatorun bankomatlarının sayı göstərilir.

6. “**Pos-terminalların sayı**”- burada milli operatorun pos-terminallarının sayı göstərilir.

7. “**Törəmə cəmiyyətlər**” - burada milli operatorun birbaşa və ya dolayı səs hüququ ilə kapitalının 50%-dən çoxuna malik olduğu törəmə cəmiyyətləri göstərilir. Bu sətirdə 7.1 və 7.2 sətirlərinin cəmi avtomatik göstərilir:

7.1. “yerli” - burada Azərbaycanda yerləşən törəmə cəmiyyətlərinin sayı göstərilir;

7.2. “xarici” - burada Azərbaycan hüdudlarından kənarda yerləşən törəmə cəmiyyətlərin sayı göstərilir.

8. “Kənar auditor” - burada milli operatorun illik fəaliyyətinin auditini həyata keçirən auditorun və ya audit şirkətinin adı göstərilir.

9. İşçi heyəti, o cümlədən:

9.1.“ştat cədvəli üzrə işçilərin (şəxslərin) sayı, cəmi” - burada milli operatorun baş ofisində, milli operatorun filiallarında, şöbələrində və icmallaşmış törəmə cəmiyyətlərdə çalışan işçilərin sayı göstərilir. Burada 9.1.1, 9.1.2, 9.1.3 və 9.1.4 sətirlərinin cəmi avtomatik göstərilir:

9.1.1. “baş ofisdə” - burada milli operatorun baş ofisində çalışan işçilərinin sayı göstərilir;

9.1.2. “filiallarda” - burada Azərbaycan Respublikası ərazisində yerləşən milli operatorun filiallarında çalışan işçilərinin sayı göstərilir. Bura filiala tabe olan şöbələrdə çalışan işçilərin sayı göstərilmir;

9.1.3. “şöbələrdə” - burada Azərbaycan Respublikası ərazisində yerləşən milli operatorun şöbələrində çalışan işçilərinin sayı göstərilir;

9.1.4. “törəmə cəmiyyətlərində” - burada Azərbaycan Respublikası ərazisində yerləşən milli operatorun törəmə cəmiyyətlərində çalışan işçilərinin sayı göstərilir;

9.2. “ilin əvvəlindən xalis dəyişiklik (şəxslərin)” - burada cari ilin əvvəlindən işə qəbul edilən və işdən azad edilən şəxslərin sayının fərqi (işə qəbul edilən çıxılsın işdən azad edilən) göstərilir.

10. “Payçıların sayı” - bu sətirdə 10.1 və 10.2 sətirlərinin cəmi avtomatik göstərilir:

10.1. “hüquqi şəxs payçıların sayı” - burada milli operatorun kapitalında payları olan hüquqi şəxs payçılarının sayı göstərilir;

10.2. “fiziki şəxs payçıların sayı” - burada milli operatorun kapitalında payları olan fiziki şəxs payçılarının sayı göstərilir.

11. “Poçt hesablarına malik şəxslərin sayı” - bu sətirdə 11.1 və 11.2 sətirlərinin cəmi avtomatik göstərilir:

11.1. “poçt hesabına malik hüquqi şəxslərin sayı” - burada hesabat tarixinə manat və/və ya xarici valyuta ilə milli operatorda hesabı açılan hüquqi şəxslərin (banklardan başqa) sayı göstərilir;

11.2. “poçt hesabına malik fiziki şəxslərin sayı” - burada hesabat tarixinə manat və/və ya xarici valyutada milli operatorda hesabı açılan fiziki şəxslərin sayı göstərilir.

12. “Poçt əmanətlərinə malik şəxslərin sayı” - burada 12.1 və 12.2 sətirlərinin cəmi avtomatik göstərilir:

12.1. “poçt əmanətlərinə malik hüquqi şəxslərin sayı” - burada hesabat tarixinə manat və/və ya xarici valyuta ilə milli operatorda poçt əmanətləri hesabı açılan hüquqi şəxslərin(banklardan başqa) sayı göstərilir;

12.2. “poçt əmanətlərinə malik fiziki şəxslərin sayı” - burada hesabat tarixinə manat və/və ya xarici valyutada milli operatorda poçt əmanətləri hesabı açılan fiziki şəxslərin sayı göstərilir.

13. “Kredit kartların sayı” - burada milli operator tərəfindən verilmiş kredit kartlarının sayı göstərilir.

14. “Kredit kartlarına malik şəxslərin sayı” - burada milli operator tərəfindən kredit kartı verilmiş şəxslərin sayı göstərilir.

15. “Debet kartların sayı” - burada milli operator tərəfindən verilmiş debet kartlarının sayı göstərilir.

16. “Debet kartlarına malik şəxslərin sayı” - burada milli operator tərəfindən debet kartı verilmiş şəxslərin sayı göstərilir.

## CƏDVƏL U_3. İdarəetmə orqanları haqqında məlumat (Əlavə 3)

1. Müşahidə Şurası. Müşahidə Şurasının sədri birinci qeyd olunmaqla, Müşahidə Şurasının bütün üzvləri haqqında məlumatlar göstərilir. Burada üzvlərin soyadı, adı, atasının adı, əsas iş yerində tutduğu vəzifə, əlaqə ünvanı və telefonu tam göstərilir.

2. Rəhbərlik. Milli operatorun baş direktorunu birinci göstərməklə, milli operatorun rəhbərliyi (direktorun müavinləri daxil olmaqla) haqqında məlumatlar göstərilir. Burada qeyd olunan şəxslərin soyadı, adı, atasının adı, əlaqə ünvanı və telefonu tam göstərilir.

3. Məsul əməkdaşlar. Burada hesabatda göstərilmiş milli operatorun məsul əməkdaşları (maliyyə xidmətlərinə rəhbərlik edən vəzifəli şəxs və onun müavinləri) haqqında məlumatlar, onların soyadı, adı, atasının adı, milli operatorda tutduğu vəzifə, əlaqə ünvanı və telefonu tam göstərilir.

## CƏDVƏL PMO_1. Mənfəət və zərər haqqında hesabat (Əlavə 4)

Cədvəldə milli operatorun mənfəəti və zərəri haqqında müfəssəl məlumatlar göstərilir. İkinci sütunda hesabat rübü də daxil olmaqla cari ilin əvvəlindən artan yekunla gəlir və xərclər göstərilir. Məsələn, əgər hesabat 30 iyunda başa çatan dövr üçün tərtib edilirsə, ikinci sütunda 1 yanvardan 30 iyun da daxil olan dövr üçün məlumatlar əks olunur.

Bu hesabatda mənfəət və zərər hesablama prinsipi ilə göstərilir.

1.“Faiz və gəlirlərin növləri, cəmi” - burada 1.1, 1.2, 1.3, 1.4 sətirlərdə göstərilən faizin və bu qəbildən olan gəlirlərin cəmi avtomatik göstərilir:

1.1.“kredit kartları üzrə gəlirlər” - burada müştərilərə kredit kartları üzrə verilmiş limitin istifadə olunmuş hissəsi üzrə faiz gəlirləri göstərilir. Bura həmçinin, kredit xətti ilə bağlı komisyon haqqı, kreditin vaxtının uzadılması (prolonqasiyası) üçün komisyon haqqı, kreditlərlə bağlı dəbbə pulu (cərimə, penya) daxil edilir;

1.2. “banklarda və maliyyə institutlarındakı depozitlər üzrə gəlirlər” - burada banklar da daxil olmaqla, digər maliyyə institutlarında yerləşdirilmiş depozit, yəni Cədvəl PMO2_A-nın 4-cü sətrinə daxil edilmiş depozitlər üzrə faiz gəlirləri göstərilir;

1.3. “qiymətli kağızlar üzrə gəlirlər” - burada 1.3.1 və 1.3.2 sətirlərinin cəmi avtomatik göstərilir:

1.3.1. “dövlət qiymətli kağızları” - burada Cədvəl PMO_2-nin 5.1 sətrinə daxil edilmiş dövlət qiymətli kağızlar üzrə faiz gəlirləri göstərilir;

1.3.2. “mərkəzi bankların qiymətli kağızları” - burada Cədvəl PMO_2-nin 5.2 sətrinə daxil edilmiş mərkəzi bankların qiymətli kağızları üzrə faiz gəlirləri göstərilir;

1.4. “digər maliyyə gəlirləri” - burada 1.1, 1.2 və 1.3 sətirlərinə daxil olmayan digər maliyyə gəlirləri göstərilir.

2. “Faizlər və onlara bağlı xərclər, cəmi” - burada 2.1, 2.2 və 2.3 sətirlərindəki faiz xərclərinin cəmi avtomatik göstərilir:

2.1. “poçt hesabları və əmanətləri üzrə faizlər, cəmi” - burada 2.1.1, 2.1.2, 2.1.3 və 2.1.4 sətirlərinin cəmi avtomatik göstərilir:

2.1.1. “hüquqi şəxslərin poçt hesabları” - burada Cədvəl PMO_2-də (Öhdəliklər) 12.1.2 sətrinə daxil edilən hesablar üzrə (faizli poçt hesabı) faiz xərcləri göstərilir;

2.1.2. “fiziki şəxslərin poçt hesabları” - burada Cədvəl PMO_2-nin 12.2.2 sətrinə daxil edilən hesablar üzrə faiz xərcləri göstərilir;

2.1.3. “hüquqi şəxslərin poçt əmanətləri” - burada Cədvəl PMO_2 -nin 12.3 sətrinə daxil edilən poçt əmanətləri üzrə faiz xərcləri göstərilir. Burada əmanətlərin vaxtından əvvəl götürülməsi ilə əlaqədar olaraq, cərimə hesab edilən və Cədvəl PMO_1-in 4.7 - "Digər qeyri-faiz gəlir növləri" sətrinə daxil edilən, verilməyən faizlərin bir hissəsi şəklində gəlirləri daxil edilmir;

2.1.4. “fiziki şəxslərin poçt əmanətləri” - burada Cədvəl PMO_2-nin 12.4 sətrinə daxil edilən poçt əmanətləri üzrə faiz xərcləri göstərilir. Buraya əmanətlərin vaxtından əvvəl götürülməsi ilə əlaqədar olaraq, cərimə hesab edilən və Cədvəl PMO_1-in 4.7 - "Digər qeyri-faiz gəlir növləri" sətrinə daxil edilməli olan, verilməyən faizlərin bir hissəsi şəklində gəlirləri daxil edilmir;

2.2. “kommersiya borc öhdəlikləri üzrə hesablanmış faizlər” - burada banklardan və maliyyə institutlarından, beynəlxalq təşkilatlardan alınmış kreditlər və cəlb olunmuş vəsaitlər, eyni zamanda mərkəzi icra hakimiyyəti orqanlarının vəsaitləri üzrə faiz xərcləri göstərilir;

2.3. “faizlə bağlı digər xərclər” - burada 2.1 və 2.2 sətirlərinə daxil olmayan faizlərlə bağlı digər xərclər göstərilir.

3. “Xalis faiz mənfəəti (zərəri)” - burada 1-ci sətirlə 2-ci sətir arasındakı fərq avtomatik göstərilir.

4. “Qeyri-faiz gəlirləri, cəmi” - burada milli operatorun göstərdiyi müxtəlif növ xidmətlərə görə komisyon haqlar və digər qeyri-faiz gəlirləri göstərilir. Burada 4.1, 4.2, 4.3, 4.4, 4.5, 4.6 və 4.7 sətirlərindəki qeyri-faiz gəlirlərinin cəmi avtomatik göstərilir:

4.1. “maliyyə xidmətləri üzrə gəlirlər” - burada 4.1.1, 4.1.2 və 4.1.3 sətirlərinin cəmi avtomatik göstərilir:

4.1.1. “rabitə xidmətlərin ödənişlərindən komisyon haqlar” - burada telefon rabitəsi üzrə yığımlardan daxil olan xidmət haqqı və gəlirlər göstərilir;

4.1.2. “kommunal xidmətlərin ödənişlərindən komisyon haqlar”- burada kommunal xidmətlər üzrə yığımlardan daxil olan xidmət haqqı və gəlirlər göstərilir;

4.1.3. “digər hesablar üzrə komisyon haqlar” - burada köçürmə əməliyyatları üzrə (köçürmə sifarişləri, birbaşa debet və kredit köçürmə sifarişləri, digər hesablaşmalar) daxil olmalar göstərilir;

4.2 “qiymətli kağızlar üzrə gəlirlər” - burada Cədvəl PMO_2-nin 5-ci sətrinə daxil edilmiş qiymətli kağızların satışından əldə edilən gəlirlər və digər qeyri-faiz gəlirləri göstərilir;

4.3. “investisiyalardan gəlirlər” - burada Cədvəl PMO_2-nin 6-cı sətrinə daxil edilmiş investisiyalardan əldə olunmuş dividendlər və digər qeyri-faiz gəlirləri göstərilir;

4.4. “məzənnə dəyişməsi daxil olmaqla, valyuta əməliyyatlarından gəlir” - burada məzənnənin dəyişməsi də daxil olmaqla valyuta əməliyyatlarından gəlir göstərilir. Burada 4.4.1 və 4.4.2 sətirlərinin cəmi avtomatik göstərilir:

4.4.1. “xarici valyuta ticarəti üzrə gəlirlər (itkilər)” - burada müştərilərin sifarişi və vəsaiti hesabına xarici valyutanın alqı-satqısı üzrə gəlir göstərilir;

4.4.2. “xarici valyutada olan aktiv və passivlərin yenidən qiymətləndirilməsi üzrə gəlirlər (itkilər)” - burada xarici valyutada ifadə olunmuş aktiv və passivlərin yenidən qiymətləndirilməsindən əmələ gələn gəlirlər (itkilər) göstərilir;

4.5. “poçt xidmətləri üzrə gəlir”- burada poçt xidmətlərinə daxil olan xidmətlərdən (teleqraf, teleks, ekspress çatdırma və kuryer xidmətləri, bağlamalar, beynəlxalq bağlamalar, xüsusi məktublar, poçt məhsulları satışı, markalar,  zərflər satışı və s.) daxil olan gəlirlər göstərilir;

4.6. “kommersiya xidmətləri üzrə gəlir” - burada milli operatorun kommersiya, o cümlədən bilet satışı və bu kimi fəaliyyətlərindən əldə olunan gəlirlər göstərilir;

4.7. “digər qeyri-faiz gəlir növləri” - burada 4.1, 4.2, 4.3, 4.4,  4.5 və 4.6 sətirlərinə daxil olmayan digər qeyri-faiz gəlirləri göstərilir.

5. “Qeyri-faiz xərcləri, cəmi” - burada 5.1, 5.2 və 5.3 sətirlərində göstərilmiş qeyri-faiz xərclərin cəmi avtomatik göstərilir. Bu xərclər faizlərin ödənilməsi ilə əlaqədar deyil, öz təbiətlərinə görə təkrarlanır və milli operatorun əməliyyat fəaliyyətini təmin edir:

5.1.“əmək haqqı və kompensasiyalar, cəmi” - burada milli operatorun bütün işçilərinin əmək haqlarının və müxtəlif kompensasiyaların ödənilməsi ilə bağlı xərclərin məbləği göstərilir. Bura mülki hüquqi müqavilə əsasında işçilərə ödənilən məbləğlər (məsləhətçilərin, vəkillərin, auditorların qonorarları) daxil edilmir. Bunlar 5.3-cü - “Əməliyyat və digər qeyri-faiz xərclərinin sair növləri” sətrində göstərilir. Burada 5.1.1, 5.1.2, 5.1.3 və 5.1.4 sətirlərinin cəmi avtomatik göstərilir:

5.1.1. “əmək haqqı” - burada 5.1.1.1, 5.1.1.2, 5.1.1.3, 5.1.1.4 və 5.1.1.5 sətirlərində qeyd olunan xərclərin cəmi göstərilir:

5.1.1.1. daimi işçilərə əmək haqqı;

5.1.1.2. iş vaxtından artıq iş üçün haqq;

5.1.1.3. müvəqqəti işçilərin əmək haqqı;

5.1.1.4. təqvim ili ərzində işçilərə hesablanan məzuniyyət məbləğləri;

5.1.1.5.  digər analoji xərclər;

5.1.2. “mükafatlar” - işçilərə mükafatların ödənilməsi üzrə bütün xərclər göstərilir;

5.1.3. “kompensasiya və müavinətlərin digər növləri” - burada 5.1.3.1, 5.1.3.2, 5.1.3.3, 5.1.3.4  və 5.1.3.5 sətirlərində qeyd olunan xərclərin cəmi göstərilir:

5.1.3.1. öz işçilərinin qidalanması üçün milli operatorun xalis xərcləri;

5.1.3.2. işçilər üçün milli operator tərəfindən ödənilən sığorta haqqı (sığorta hadisəsi baş verdikdə mükafatı işçinin özü və ya onun ailəsi alır);

5.1.3.3. səhhətinə görə, bədbəxt hadisələrlə, hospitallaşdırma və s. ilə bağlı əlavə məbləğlər da daxil olmaqla, milli operatorun öz işçilərinə ödədiyi tibbi və sağlamlaşdırıcı xidmətlərin dəyəri;

5.1.3.4. işçilərin dövrü mətbuata abunəsi üçün xərclər;

5.1.3.5. digər analoji xərclər;

5.1.4. "sosial təminat xərcləri" - burada 5.1.4.1 və 5.1.4.2 sətirlərində qeyd olunan xərclərin cəmi göstərilir:

5.1.4.1. əmək haqqı fondundan ödənişlərin məbləği (sosial müdafiə fonduna);

5.1.4.2. digər analoji xərclər;

5.2. "əsas vəsaitlərlə bağlı xərclər, cəmi" - burada 5.2.1, 5.2.2, 5.2.3 və 5.2.4 sətirlərində göstərilmiş əsas vəsaitlərlə bağlı xərclərin cəmi avtomatik göstərilir. Cədvəl PMO_2-nin 8-ci "Əsas vəsaitlər (amortizasiya çıxılmaqla)" sətrində göstərilən binaların, avadanlıqların, mebelin və digər əmlakın istifadəsi ilə bağlı bütün qeyri-faiz xərclər göstərilir:

5.2.1. "icarə haqları" - burada 5.2.1.1 və 5.1.1.2 sətirlərində qeyd olunan xərclərin cəmi göstərilir;

5.2.1.1. milli operator tərəfindən daşınmaz və daşınar əmlaka görə verilən icarə ödəmələri. Daşınmaz əmlakın icarəyə verilməsindən istənilən icarə gəliri varsa, milli operatorun icarə ödəmələrinin məbləği həmin məbləğ qədər azalır;

5.2.1.2. aktivlər kimi göstərilməyən icarəyə götürülmüş əmlakın, avadanlığın, mebelin və daşınan əmlakın bilavasitə milli operatorun xərcləri hesabına bərpa və təmir işlərinin dəyəri;

5.2.2. "amortizasiya" - burada əsas vəsaitlərlə bağlı amortizasiya xərcləri göstərilir;

5.2.3. "əsas vəsaitlərin saxlanması üçün maddi-texniki təminat xərcləri" - burada 5.2.3.1 və 5.2.3.2 sətirlərində qeyd olunan xərclərin cəmi göstərilir:

5.2.3.1. daşınmaz əmlaka aid edilən otaqların, avadanlığın, mebelin və digər əmlakın (icarə əmlakının yaxşılaşdırılması da daxil olmaqla) adi təmirinin dəyəri;

5.2.3.2. xidmət müqavilələrinin dəyəri və ya daşınmaz əmlaka aid edilən otaqların, avadanlığın, mebelin və digər əmlakın texniki xidmətini əks etdirən xərclər;

5.2.4. "əsas vəsaitlərlə bağlı digər xərclər" - burada əsas vəsaitlərlə bağlı 5.2.4.1, 5.2.4.2, 5.2.4.3, 5.2.4.4, 5.2.4.5 və 5.2.4.6 sətirlərində qeyd olunan xərclərin cəmi göstərilir:

5.2.4.1. istilik, elektrik, su və binaların və digər əsas vəsaitlərin istismarı ilə bağlı digər kommunal xidmətlərin dəyəri;

5.2.4.2. bina və otaqların təmizlənməsi üçün ləvazimatların, bina və otaqların təmizlənməsi ilə bağlı xidmətlərin dəyəri;

5.2.4.3. milli operatorun mülkiyyətində olan avtomobillərin və digər nəqliyyat vasitələrinin istismarı ilə bağlı yanacaq, maddi-texniki xidmət xərcləri və digər xərclər (sığorta da daxil olmaqla);

5.2.4.4. yalnız əmlakla bağlı bütün vergilər və rüsumlar (məsələn əmlak vergisi, avtonəqliyyatın qeydiyyatı vergisi) və binalara, avadanlığa, mebel və daşınar əmlaka görə digər vergilər. Burada vergi orqanları tərəfindən qaytarılmalı olan vergilərin məbləği daxil edilmir, bu məbləğ Cədvəl PMO_2_2-nin (Digər Aktivlər) 6-cı - "Sair digər aktivlər" sətrində göstərilir;

5.2.4.5. daşınmaz əmlaka aid edilən otaqların, avadanlığın, mebelin və digər əmlakın sığortası ilə bağlı xərclər;

5.2.4.6. binaların və qiymətlilərin mühafizəsi ilə bağlı xərclər (idarədənkənar mühafizə üzrə xərclər də daxil olmaqla). Burada mühafizə üçün əmək haqqı xərcləri daxil edilmir (idarədən kənar mühafizə də daxil olmaqla), bunlar 5.1-ci "Əmək haqqı və kompensasiyalar, cəmi" sətrində göstərilir;

5.3. "əməliyyat və digər qeyri-faiz xərclərinin sair növləri" - burada 5.3.1, 5.3.2 sətirlərində göstərilmiş xərclərin cəmi avtomatik göstərilir:

5.3.1 "əməliyyat və komisyon xərcləri" - burada əməliyyat xərc növləri göstərilir;

5.3.2 "digər qeyri-faiz xərclərinin sair növləri" – burada digər qeyri faiz xərclərinin sair növləri, həmçinin 5.3.2.1-5.3.2.21 sətirlərində qeyd olunan xərclərin cəmi göstərilir:

5.3.2.1 ofis ləvazimatlarının alınması xərcləri (azqiymətli və tez köhnələn əşyalar), mətnlərin yığılması haqqı və poçt xərcləri;

5.3.2.2. telefon, teleqraf, teleks və kompüter əlaqəsi ilə bağlı xərclər;

5.3.2.3. reklam, ictimaiyyətlə əlaqə və marketinq xərcləri;
5.3.2.4. milli operatorun özü tərəfindən buraxılan və daxildə işçilər arasında yayılan nəşrlərin dəyəri;
5.3.2.5. yol xərcləri (ezamiyyə xərcləri) və rəhbərliyin, eləcə də digər işçilərin tədbirlərdə iştirakı ilə əlaqədar xərclər də daxil olmaqla nümayəndəlik xərcləri;
5.3.2.6. rəhbərliyin və işçilərinin təhsili, imtahan edilməsi və təlimi ilə bağlı çəkilən xərclər;
5.3.2.7. fərdi proqram təminatı yaradılması xərcləri də daxil olmaqla tədqiqat işlərinin və layihələrin hazırlanması üçün xərclər;
5.3.2.8. xeyriyyə ödəmələri, o cümlədən ianələr;
5.3.2.9. saxta, yararsız pullara, soyğunçuluğa, israflara, kassa əskikliyinə və digər cinayət əməllərinə görə itkilər;
5.3.2.10. pul tutulmaları və cərimələr;
5.3.2.11. ümumi gəlirlərə əsaslanan vergilər, o cümlədən yol vergisi. Cədvəl PMO_1-in 10-cu – "Mənfəətdən ödənilən vergilər" – sətrində göstəriləcək mənfəətdən ödənilən bütün vergilər istisna olmaqla;
5.3.2.12. ştatlı əməkdaş olmayan vəkillərin, auditorların, məsləhətçilərin və digər mütəxəssislərin (auditor yoxlamaları da daxil olmaqla) qonorarları;
5.3.2.13. təşkilatlara (yerli və beynəlxalq) üzvlüklə bağlı rüsumlar, üzvlük haqları və digər xərclər;
5.3.2.14. daşınmaz əmlakın borc hesabına əldə edilməsi ilə bağlı digər xərclər;
5.3.2.15. vaxtı keçmiş ödəmələrə görə aktivlərin əldə edilməsi, kredit kartları üzrə istifadə olunmuş məbləğlərin və ya milli operatorun digər aktivlərinin yığılması üçün üçüncü şəxslərə xidmət haqları, komisyon haqlar və qonorarlar;
5.3.2.16. vaxtı keçmiş ödəmələrə görə əldə edilmiş əmlaka hüquqlar əldə etmək və sonradan onların saxlanılması üçün hər cür xərclər (hüquqi və notarial xidmətlərin haqları, cari təmir və saxlanma xərcləri, dövlət rüsumları və digər xərclər);
5.3.2.17. milli operatorun işində istifadə olunmayan daşınmaz əmlaka sahibliklə bağlı sonrakı qeyri-faiz xərcləri (o cümlədən amortizasiya ayırmaları);
5.3.2.18. icarə müqavilələri ilə kirayəyə verilən mebelin və avadanlıqların amortizasiya xərcləri;
5.3.2.19. məhkəmə xərcləri;
5.3.2.20. mülki müdafiə xərcləri;
5.3.2.21. burada 5.3.2.21.1-4 sətirlərində göstərilənlərə görə xalis zərərin cəmi göstərilir:
5.3.2.21.1.əsas vəsaitlərin satışı;
5.3.2.21.2. digər aktivlərin satışı;
5.3.2.21.3. investisiya üçün alınmış hüquqi şəxslərin payların və səhmlərin satılması;
5.3.2.21.4. səhmlərin və borc öhdəliklərinin yenidən qiymətləndirilməsi.
6. "Xalis əməliyyat mənfəəti (zərəri)" - burada 5-ci sətir çıxılmaqla, 3-cü və 4-cü sətirlərin cəmi avtomatik göstərilir.
7. "Vergilər və gözlənilməz xərclər ödənilənədək mənfəət (zərər)" - bu sətir 6-cı sətirə bərabər olur.
8. "Gözlənilməz fəaliyyət növlərindən və əvvəlki dövr üçün uçot dəyişikliklərindən mənfəət (zərər), cəmi" - bu sətirdə 8.1 və 8.2 sətirlərində göstərilən mənfəətin (zərər) cəmi avtomatik göstərilir:
8.1."daşınmaz əmlakın satışından mənfəət (zərər)" - burada daşınmaz əmlakın satışından gələn mənfəət və ya zərər (auksionda çəkilmiş xərcləri nəzərə almaqla) göstərilir;
8.2. "sair mənfəət (zərər)" - burada 8.1 sətrində göstərilməyən digər bütün mənfəət (zərər), o cümlədən, əvvəlki illərə aid mühasibat uçotu və ya oxşar əməliyyatların prinsiplərindəki mümkün dəyişikliklər göstərilir.
9. "Vergilər ödənilənədək mənfəət (zərər)" - burada 7 və 8-ci sətirlərin cəmi (və ya fərqini) göstərilir. Zərər müəyyən edilərsə, bu sətirdəki məbləğ mötərizədə göstərilir. Bu hesabata uyğun

olaraq müəyyən edilən vergitutulan mənfəətin məbləği vergi orqanlarına təqdim edilən vergitutulan mənfəətin məbləğindən fərqlənə bilər.

10. "**Mənfəətdən ödənilən vergilər**" - yalnız mənfəətdən ödənilən (hesabat tarixinə ödənilməli olan) vergilər göstərilir (mənfəət vergisi).

10.1. burada aşağıdakılar daxil edilmir:

10.1.1. ümumi gəlirlərə əsaslanan vergilər, bunlar 5.3 - "Əməliyyat və digər qeyri-faiz xərclərin sair növləri" sətrində göstərilir;

10.1.2. əmək haqqı ilə bağlı vergilər, bunlar 5.1.4 - "Sosial təminat xərcləri" sətrində göstərilir;

10.1.3. əmlak vergisi, bunlar 5.2.4 - "Əsas vəsaitlərlə bağlı digər xərclər" və ya 5.3-cü - "Əməliyyat və digər qeyri-faiz xərclərinin sair növləri" sətirlərində göstərilir;

10.2. hesabat tarixi üçün hesablanmış, lakin dövlət büdcəsinə köçürülməmiş bütün vergilər Cədvəl PMO_2_2-nin 10-cu - "Təxirə salınmış vergi öhdəliyi" sətrində göstərilir;

10.3. mənfəətdən vergi imtiyazlarını əks etdirərkən yalnız cari ilin mənfəəti üzrə imtiyazlara aid məbləğlər göstərilir (məsələn, əvvəlki illər üçün zərər olduqda);

10.4. əgər milli operator cari ilin əvvəli mənfəətlə işləmişsə, sonra həmin ildə zərəri olmuşsa, onda bu cədvəlin 3-cü sütununda hesablanmış və cari ilin ayrı-ayrı rüblərində mənfəətdən ödənilmiş vergilərin məbləğindən asılı olmayaraq, cari ilin əvvəlindən hesabat tarixinədək mənfəətdən verginin məbləği göstərilir.

11."**Vergilər ödənildikdən sonra xalis mənfəət (zərər)**" - burada 9-cu sətirlə 10-cu sətrin fərqi avtomatik göstərilir (və ya 9-cu sətir üzrə məbləğ mötərizədə göstərildikdə, bu sətirlərin cəmi göstərilir).

## CƏDVƏL PMO_1_1. Kapital dəyişmələri (Əlavə 5)

Cədvəldə milli operatorun kapitalındakı dəyişiklik haqqında məlumatlar əks etdirilir. Burada cari ildə kapitalın hərəkəti haqqında məlumatlar (artan yekunla) daxil edilir. Bu cədvəl kapitalın təqvim ili ərzində dəyişməsini təhlil etməyə imkan verir.

1."**Cari ilin yanvarın 1-nə olan kapital**" - burada əvvəlki ilin 31 dekabrı üçün Balans hesabatındakı (Cədvəl PMO_2, sətir 22, sütun 2) məbləğ göstərilir. Bu sətir üzrə məbləğ cari ilin bütün hesabat tarixləri üçün dəyişməz qalır. Mənfi kapital mötərizədə göstərilir.

2. "**Cari ildə Mərkəzi Banka göndərilmiş dəqiqləşdirilmiş (dürüstləşdirilmiş) hesabatların aid olduğu kumulyativ (cəmləşdirilmiş) düzəlişlər**" - burada hesabatlarda cari ilin əvvəlinə göstərilmiş kapitala cari ildə edilən (həm kapitalın artması, həm də azalması istiqamətində) və bu barədə cari ildə Mərkəzi Banka dürüstləşdirilmiş hesabatlar göndərilmiş düzəlişlərin kumulyativ məbləği göstərilir. Bütün düzəlişlərin kumulyativ məbləği mənfi olduğu halda, o mötərizədə göstərilir.

3. "**Dəqiqləşdirilmiş (dürüstləşdirilmiş) kapital**" - burada 1 və 2 sətirlərin cəmi göstərilir (mənfi kapital mötərizədə).

4. "**Cari ilin xalis mənfəəti (zərəri)**" - burada Cədvəl PMO_1, sətir 11, sütun 2-dən cari ilin əvvəlindən ötən dövr üçün xalis mənfəətin və ya zərərin (mənfəət vergisi çıxıldıqdan sonra) məbləği göstərilir. Zərər olduğu halda bu sətir üzrə məbləğ mötərizədə göstərilir.

5. "**Cari ilin əvvəlindən paylarla xalis əməliyyatlar**" - burada 5.1 və 5.2 sətirlərində əks olunmuş paylarla əməliyyatlar üzrə xalis yekun göstərilir (sətir 5.1 çıxılsın sətir 5.2). Əgər payların qaytarılması olubsa və eyni zamanda pay haqlarının artırılması olmayıbsa, onda məbləğ 5-ci sətirdə mötərizədə göstərilir. Pay əvvəlcə satılıb sonradan geri satın alınıbsa, onda hər bir əməliyyat göstərilən hər iki sətirdə öz əksini tapır, yəni 5.1 və 5.2 sətirlərində cari ilin əvvəlindən hesabat tarixinə qədər paylarla aparılan əməliyyatların hamısı müfəssəl şəkildə öz əksini tapır:

5.1. "payların qoyulması" - burada milli operatorun kapitalına qoyulan pay haqlarının məbləği göstərilir;

5.2. "payların geri alınması" - burada milli operatorun özü tərəfindən satın alınan payların məbləği göstərilir.

6. “Cari ilin əvvəlindən dəyişikliklər” - burada cari ilin əvvəlindən 6.1 və 6.2 sətirlərinin hər biri üzrə dəyişikliklərin məbləği göstərilir, yəni göstərilən hər sətir üzrə hesabat tarixi və cari ilin əvvəli (1 yanvar) ilə müqayisədə məbləğlər arasında fərq (müsbət yaxud mənfi (mötərizədə) və ya dəyişiklik olmazsa, “0”) göstərilir.

Əgər hesabat tarixinə ehtiyatın məbləği cari ilin 1 yanvarına olan məbləğdən azdırsa, onda göstərilən sətirlər üzrə məbləğ mötərizədə göstərilir. Əgər hesabat tarixi üçün bütün ümumi ehtiyatların məbləği cari ilin əvvəli üçün bütün ümumi ehtiyatların məbləğindən azdırsa, onda 6-cı sətir üzrə məbləğ də mötərizədə göstərilir.

6.1. bu sətirdə əsas vəsaitlərin yenidən qiymətləndirilməsinin dəyişikliyinin məbləği göstərilir. Bu məbləğ hesabat tarixi və əvvəlki ilin 31 dekabrı üçün hesabat üzrə Cədvəl PMO_2-nin 2-ci sütununun 21.1 sətrindəki fərqə (müsbət və ya mənfi) bərabər olmalıdır;

6.2. bu sətirdə digər ümumi ehtiyatların dəyişikliklərinin məbləği göstərilir. Bu məbləğ hesabat tarixi üçün və əvvəlki ilin 31 dekabrı üçün hesabat üzrə Cədvəl PMO_2-nin 2-ci sütununun 21.2 sətrindəki fərqə (müsbət və ya mənfi) bərabər olur.

7. “Ötən illərdəki səhvlər nəticəsində kumulyativ düzəlişlər” – burada əvvəlki illərdə olmuş və milli operator tərəfindən Mərkəzi Banka təqdim olunmuş hesabatlarda dürüstləşdirilməyən riyazi səhvlər (habelə mühasibat uçotundakı dəyişikliklər nəticəsində olan səhvlər) göstərilir. Məbləğ mənfi olduğu halda o, mötərizədə göstərilir.

8. “Hesabat tarixinə olan kapital” – burada riyazi hesablama yolu ilə alınan məbləğ göstərilir: sətir 3, üstəgəl və ya çıx sətir 4, üstəgəl və ya çıx sətir 5, üstəgəl və ya çıx sətir 6, üstəgəl və ya çıx sətir 7. Bu sətrin cəmi Cədvəl PMO_2-nin 2-ci sütununun 22-ci sətrindəki kapitalın məbləğinə uyğun olmalıdır. Kapital mənfi olduğu halda, bu sətir üzrə məbləğ mötərizədə göstərilir.

## CƏDVƏL PMO_2. Balans hesabatı (Əlavə 6)

Bu cədvəldə aktivlər, öhdəliklər və kapitalın strukturu üzrə məlumatlar göstərilir. Burada məlumatlar digər cədvəllərdəki məlumatları ümumiləşdirir. Ona görə də Balans hesabatının ayrı-ayrı sətirlərinin doldurulması üzrə göstərişlər müvafiq cədvəllərin təsviri zamanı verilir. Belə hallarda Balans hesabatının ayrı-ayrı sətirlərini ancaq sətirlərin məzmununu müfəssəl göstərən hesabatların digər cədvəlləri tərtib edildikdən sonra doldurmaq lazımdır.

Məlumatlar iki sütunda əks olunur: 2-ci sütun “Cəmi” və 3-cü sütun “Xarici valyutada”. 2-ci sütuna manatla və manat ekvivalentində xarici valyutada olan balans maddələri üzrə cəmi məlumatlar daxildir. 3-cü sütun 2-ci sütunun bölməsi olaraq, hesabat tarixi üçün Mərkəzi Bankın rəsmi məzənnəsi üzrə manat ekvivalentində xarici valyutada olan balans maddələri üzrə məlumatları əks etdirir.

Aşağıda, əsasən 2-ci sütunun - “Cəmi” doldurulması üzrə göstərişlər verilir, başqa göstəriş olmadıqda 3-cü sütun da - “Xarici valyutada” həmin qaydada doldurulur.

1. “Nağd vəsaitlər” - burada nağd milli valyutanın (manatın) və manat ekvivalentində xarici valyutanın məbləği göstərilir.

Bu sətirdə milli operatorun kassasında, filiallarında və şöbələrində olan milli və xarici valyuta qalığı, bankomatlarda, inkassasiya prosesində olan pullar göstərilir.

2. “Mərkəzi Bankda müxbir hesablar” - burada milli operatorun, onun filial və şöbələrinin Mərkəzi Bankda (manatla və xarici valyuta ilə) və Mərkəzi Bankın ərazi idarələrində hesablarındakı vəsaitlərinin qalıqları göstərilir.

3. “Nostro hesabları” - burada milli operatorun müxbir hesablarındakı (rezident və qeyri-rezident) manat və xarici valyuta ilə vəsaitlərin (bloklaşdırılmış məbləğlər də daxil olmaqla) xalis qalıqları göstərilir.

4. “Banklar da daxil olmaqla maliyyə institutlarındakı depozitlər, cəmi” - burada banklar da daxil olmaqla maliyyə institutlarında 4.1 və 4.2 sətirlərində göstərilən xalis depozitlərin cəmi avtomatik göstərilir:

4.1. “rezident maliyyə müəssisələrində depozitlər” - burada xarici bankların yerli filialları da daxil olmaqla Azərbaycan Respublikasının ərazisində yerləşən və qeydiyyatda olan banklarda yerləşdirilmiş depozitlər göstərilir;

4.2. “qeyri-rezident maliyyə müəssisələrində depozitlər” - burada xarici ölkələrdə yerləşən maliyyə institutlarında, o cümlədən yerli bankların xarici filiallarında yerləşdirilmiş depozitlər göstərilir.

5. “Qiymətli kağızlar” - burada 5.1 ilə 5.2 sətirlərinin cəmi avtomatik göstərilir:

5.1. “dövlət qiymətli kağızları” - burada milli operator tərəfindən alınmış yerli və xarici emitentlərin buraxdığı dövlət qiymətli kağızlarının xalis yekun məbləği göstərilir;

5.2. “mərkəzi bankların qiymətli kağızları” - burada milli operatorun aldığı mərkəzi bankların qiymətli kağızları üzrə məbləğ göstərilir.

6. “İnvestisiyalar” – burada investisiya strategiyası çərçivəsində əldə edilmiş maliyyə alətləri, həmçinin səhm və pay şəklində investisiya məbləği göstərilir.

7. “Kredit kartları üzrə istifadə olunmuş məbləğ” - burada müştərilərə kredit kartları üzrə verilmiş limitin istifadə olunmuş məbləği göstərilir.

8. “Əsas vəsaitlər (amortizasiya çıxılmaqla)” - burada bilavasitə milli operator tərəfindən alınan, lizinq və milli operatorun öz fəaliyyəti üçün istifadə edilən (milli operatorun filialları, şöbələri tərəfindən istifadə də daxil olmaqla) bütün əsas vəsaitlərin balans qiymətləri göstərilir. Burada milli operator tərəfindən öz ehtiyacları (fəaliyyəti) üçün aldığı kreditləri (bunlar balans hesabatının öhdəliklərinə daxil edilir) hesabına alınan əsas vəsaitlər də göstərilir. Bu zaman bu kreditlər üzrə girov qoyulmuş istifadə olunan əsas vəsaitlər çıxılmır.

Maliyyə icarəsinə götürülmüş əsas vəsaitlər (lizinq) - ilkin birbaşa məsrəflər daxil olmaqla və onların kapitallaşdırılmış əsaslı təmir xərcləri (icarəyə götürülmüş əsas vəsaitlə bilavasitə əlaqədar olan və onun ayrılmaz tərkib hissəsinə çevrilən, icarə müddəti qurtardıqdan sonra isə milli operatorun mülkiyyətinə keçən əsas vəsaitin əsaslı təmiri) daxil edilir.

9. “Qeyri-maddi aktivlər (amortizasiya çıxılmaqla)” - qeyri-maddi aktivlərin dəyəri amortizasiya məbləği çıxılmaqla göstərilir.

10. “Digər aktivlər” - burada Cədvəl PMO_2_2-nin, 3-cü sütun 7-ci sətrindəki digər aktivlərin yekun məbləği avtomatik göstərilir.

11. “Cəmi aktivlər” - yuxarıda göstərilən bəndlərin yekun məbləği, yəni 1, 2, 3, 4, 5, 6, 7, 8, 9 və 10 sətirlərinin cəmi avtomatik göstərilir.

Öhdəliklər

12. “Poçt hesabları və əmanətləri, cəmi” - burada 12.1, 12.2, 12.3 və 12.4 sətirlərinin cəmi avtomatik göstərilir:

12.1. “hüquqi şəxslərin poçt hesabları, cəmi” - burada 12.1.1 və 12.1.2 sətirlərində əksini tapmış poçt hesablarının məbləği avtomatik göstərilir:

Bura hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxs olan müştərilərin hesablarındakı qalıqları, o cümlədən hesablaşmaları ödəniş kartları ilə aparılan hüquqi şəxs olan müştərilərin hesabları üzrə qalıqları, habelə vəsaitlərin bloklaşdırılması (məsələn, hüquq-mühafizə orqanlarının sərəncamı) üzrə hesabları daxildir.

12.1.1. burada hüquqi şəxslərin faiz hesablanmayan poçt hesablarının qalıq məbləği göstərilir;

12.1.2. burada hüquqi şəxslərin faiz hesablanan poçt hesablarının qalıq məbləği göstərilir.

12.2. “fiziki şəxslərin poçt hesabları” - burada 12.2.1 və 12.2.2 sətirlərində əksini tapmış poçt hesablarının məbləği avtomatik göstərilir:

12.2.1. burada fiziki şəxslərin faiz hesablanmayan poçt hesabları göstərilir (müqaviləyə görə faiz hesablanmayan cari hesablarının qalığı, habelə fiziki şəxslərin qaytarılma vaxtı ötmüş müddətli poçt əmanətləri göstərilir);

12.2.2. burada fiziki şəxslərin faiz hesablanan poçt hesabları göstərilir;

12.3. “hüquqi şəxslərin poçt əmanətləri” - burada qaytarılma müddəti müəyyən edilmiş və vaxtı keçməmiş poçt əmanətləri göstərilir. Bura hüquqi şəxslərin qaytarılma vaxtı keçmiş müddətli

poçt əmanətləri daxil edilmir. Bunlar 12.1 - "Hüquqi şəxslərin poçt hesabları" sətrində (müvafiq kateqoriyada) göstərilir;

12.4. "fiziki şəxslərin poçt əmanətləri" - burada qaytarılma müddəti müəyyən edilmiş və vaxtı keçməmiş poçt əmanətləri göstərilir. Bura fiziki şəxslərin qaytarılma vaxtı keçmiş poçt əmanətləri daxil edilmir. Bunlar 12.2 - "Fiziki şəxslərin poçt hesabları" sətrində müvafiq kateqoriyada göstərilir.

13. "Bankların vəsaitləri" - burada 13.1 və 13.2 sətrlərində əksini tapmış bank kreditlərinin və poçt əmanətlərinin məbləği avtomatik göstərilir:

13.1. "rezident banklar"- burada 13.1.1, 13.1.2 və 13.1.3 sətrlərində əksini tapmış rezident bankların bank kreditlərinin və poçt əmanətlərinin cəmi avtomatik göstərilir:

13.1.1. "təminatlı" - rezident banklar tərəfindən verilmiş təminatlı kreditlərin məbləği göstərilir;

13.1.2. "təminatsız" - burada rezident banklar tərəfindən verilmiş təminatsız kreditlərin məbləği göstərilir;

13.1.3 "poçt əmanətləri" - burada rezident bankların qaytarılma müddəti müəyyən edilmiş və vaxtı keçməmiş poçt əmanətləri göstərilir. Bura bankların qaytarılma vaxtı keçmiş müddətli poçt əmanətləri daxil edilmir. Bunlar 12.1 - "Hüquqi şəxslərin poçt hesabları" sətrində (müvafiq kateqoriyada) göstərilir;

13.2 "qeyri-rezident banklar" - burada 13.2.1 və 13.2.2 sətrlərində əksini tapmış qeyri-rezident bankların bank kreditlərinin və poçt əmanətlərinin cəmi avtomatik göstərilir:

13.2.1 "təminatlı" - burada qeyri-rezident banklar tərəfindən verilmiş təminatlı kreditlərin məbləği göstərilir;

13.2.2. "təminatsız" - burada qeyri-rezident banklar tərəfindən verilmiş təminatsız kreditlərin məbləği göstərilir;

13.2.3 "poçt əmanətləri" - burada qeyri-rezident bankların qaytarılma müddəti müəyyən edilmiş və vaxtı keçməmiş poçt əmanətləri göstərilir. Bura bankların qaytarılma vaxtı keçmiş müddətli poçt əmanətləri daxil edilmir. Bunlar 12.1 - "Hüquqi şəxslərin poçt hesabları" sətrində (müvafiq kateqoriyada) göstərilir.

14. "Digər maliyyə institutlarının (banklardan başqa) vəsaitləri" - burada 14.1, 14.2 və 14.3 sətrlərində əksini tapmış kreditlərin cəmi avtomatik göstərilir:

14.1. "rezident maliyyə institutlarından alınmış" - burada banklardan başqa digər rezident institutlardan alınmış kreditlər göstərilir;

14.2. "qeyri-rezident maliyyə institutlarından alınmış"- burada banklardan başqa digər qeyri-rezident institutlardan alınmış kreditlər göstərilir;

14.3. "beynəlxalq təşkilatlardan alınmış" - burada beynəlxalq təşkilatlardan alınmış kreditlər göstərilir.

15. "Mərkəzi icra hakimiyyəti orqanlarının vəsaitləri" - burada mərkəzi icra hakimiyyəti orqanlarından alınmış vəsaitlər göstərilir.

16. "Milli operatorun daşınmaz əmlak əldə edilməsi üçün aldığı kreditlər" - burada təşkilatın daşınmaz əmlak alınması məqsədilə almış olduğu kreditlərin məbləği göstərilir.

17. "Digər passivlər" - burada Cədvəl PMO_2_2-nin, 3-cü sütun, 14-cü sətrindəki digər passivlərin yekun məbləği avtomatik göstərilir.

18. "Cəmi öhdəliklər" - burada yuxarıdakı göstərilən bəndlərin cəmi, yəni 12, 13, 14, 15, 16 və 17 sətirlərinin cəmi avtomatik göstərilir.

**Kapital**

19. "Nizamnamə kapitalı" - burada milli operatorun nizamnamə kapitalının məbləği göstərilir.

20. "Bölüşdürülməmiş xalis mənfəət (zərər), cəmi" - burada 20.1 və 20.2 sətirlərinin məbləğinin cəmi avtomatik göstərilir.

20.1. "əvvəlki illərin xalis mənfəəti (zərəri)" - burada ötən illər ərzində, yəni milli operatorun mövcud olduğu illər ərzində yığılmış xalis mənfəətin (zərərin) məbləği göstərilir. Zərər olduğu hallarda məbləğ mötərizədə göstərilir;

20.2. “cari ilin xalis mənfəəti (zərəri)” - burada cari il ərzində, yəni milli operatorun cari ildəki fəaliyyəti nəticəsində yaradılmış (alınmış) xalis mənfəətin (zərərin) məbləği avtomatik göstərilir. Zərər olduğu hallarda məbləğ mötərizədə göstərilir.

21. “Ümumi ehtiyatlar, cəmi” - burada 21.1 və 21.2 sətirlərinin cəmi avtomatik göstərilir:

21.1. “əsas vəsaitlərin yenidən qiymətləndirilməsi” - burada həyata keçirilmiş əsas vəsaitin yenidən qiymətləndirilməsinin məbləği göstərilir;

21.2. “digər ümumi ehtiyatlar” - burada digər ümumi ehtiyatların məbləği göstərilir.

22. “Cəmi kapital” - burada 19, 20 və 21 sətirlərin cəmi avtomatik göstərilir.

23. “Cəmi öhdəliklər və kapital” - burada 18 və 22-ci sətirlərinin cəmi avtomatik göstərilir.

Balansdankənar öhdəliklər

1. “Kredit alətləri” - burada kredit kartları sahibləri qarşısında hesabat tarixinə yerinə yetirilməmiş öhdəliklər göstərilir.

2. “Digər balansdankənar öhdəliklər” - burada milli operatorun kredit alətləri üzrə hesabat tarixinədək yerinə yetirilməmiş və 1-ci sətirdə göstərilməmiş bütün digər balansdankənar öhdəliklər göstərilir.

3. “Cəmi balansdankənar öhdəliklər” - burada 1 və 2 sətirlərinin cəmi avtomatik göstərilir.

## CƏDVƏL PMO_2_1. “Digər hüquqi şəxslərin kapitalının (payların, səhmlərin) əldə edilməsi haqqında hesabat” (Əlavə 7)

Cədvəldə milli operatorun digər hüquqi şəxslərin kapitalına investisiyaları, yəni əldə etdiyi səhmləri və payları barədə məlumatlar əks olunur.

Cədvəldə sütunlar üzrə aşağıdakı məlumatlar doldurulmalıdır:

1. “Hüquqi şəxsin adı” - burada milli operator tərəfindən səhmləri və ya payları əldə edilmiş hüquqi şəxsin adı tam göstərilir.

2. “İnvestisiyanın balans dəyəri” - burada investisiyanın qoyulduğu tarixə balans dəyəri göstərilir.

3. “İnvestisiyanın bazar dəyəri (əgər bazarda belə investisiyaların alqı-satqısı aparılırsa)” - burada investisiyanın hesabat tarixinə bazar dəyəri göstərilir.

4. “Milli operatorun investisiya etdiyi hüquqi şəxsin kapitalında iştirak payı (%)” - burada milli operatorun səhmlərini və payını əldə etdiyi hüquqi şəxslərdə faizlə payı (paylarda xüsusi çəkisi) göstərilir.

5. “İnvestisiyanın valyutasının növü” - burada qoyulan investisiyanın valyutası göstərilir.

6. “Hüquqi şəxsin yerləşdiyi yer” - burada səhmləri alınan və ya payı əldə edilən hüquqi şəxsin olduğu yer göstərilir.

7. “İnvestisiyanın qoyulduğu tarix” - burada kapital qoyuluşunun rəsmiləşdirildiyi və balansda əks olunduğu tarix göstərilir.

8. “Qeydlər (əgər investisiya borcun əvəzinə alınmışdırsa göstərilməlidir)” - burada investisiya hər hansı borcun əvəzinə alınmışdırsa, bununla bağlı qeyd olunur.

## CƏDVƏL PMO_2_2 “Digər aktivlər -Digər passivlər” (Əlavə 8)

Məlumatlar iki sütunda əks etdirilir. 3-cü sütunda seçmə maddi və digər aktivlərin və seçmə digər passivlərin məbləği manat və manat ekvivalentində xarici valyutanın cəmi əks etdirilir. 4-cü sütunda xarici valyutada olan maddi və digər aktivlərin və digər öhdəliklərin Mərkəzi Bankın hesabat tarixinə olan rəsmi məzənnəsi ilə manat ekvivalentində əks etdirilir. 4-cü sütundakı məbləğlər 3-cü sütundakı məbləğə bərabər və ya ondan az ola bilər.

Bu cədvəl Cədvəl PMO_2-nin 10-cu “Digər aktivlər” sətrinin və Cədvəl PMO_2-nin 17-ci “Digər passivlər” sətrinin doldurulması üçün əsasdır.

"Digər aktivlər"

1. "Debitor borclar" – burada milli operatora göstərdiyi xidmətlərə görə qarşı tərəfin borcları göstərilir. Bu göstəricilər milli operator tərəfindən hesablanaraq gəlirlərə aid edilmiş, lakin ödənilməmiş məbləğləri əks etdirilir.

2. "Avans ödənişlər" - burada qabaqcadan ödənişlər əks olunur.

3. "Təxirə salınmış vergi aktivi" - burada artıq ödənilmiş vergi məbləği göstərilir.

4. "Hesablanmış alınası faizlər, cəmi" - burada 4.1, 4.2, 4.3, 4.4 və 4.5 sətirlərinin cəmi avtomatik göstərilir:

4.1. bu sətirdə nostro hesablar üzrə hesablanmış faizlər göstərilir;

4.2. bu sətirdə banklardakı və digər maliyyə institutlardakı depozitlər üzrə hesablanmış faizlər göstərilir;

4.3. bu sətirdə kredit kartları üzrə verilmiş limitin istifadə olunmuş hissəsi üzrə hesablanmış faizlər göstərilir;

4.4. bu sətirdə qiymətli kağızlar üzrə dividendlər və hesablanmış faizlər göstərilir;

4.5. bu sətirdə digər əməliyyatlar üzrə hesablanmış faizlər - 4.1, 4.2, 4.3 və 4.4 sətirlərindən başqa hesablanmış faizlər göstərilir.

5. "Barat əməliyyatları və digər tranzit əməliyyatlar" - burada barat əməliyyatları və digər tranzit əməliyyatları üzrə hesablaşmaları (artıq ödəmələr) göstərilir.

6. "Sair digər aktivlər" - bu cədvəldə sadalanan sətirlərə daxil olmayan bütün digər aktivlər burada göstərilir. Məsələn, ödəmə vasitəsi kimi istifadə olunan maliyyə aktivləri (o cümlədən, yol çekləri).

7. "Digər Aktivlər, cəmi" - burada digər aktivlərin məbləğinin cəmi yəni 1, 2, 3, 4, 5 və 6-cı sətirlərinin cəmi avtomatik göstərilir:

"Digər passivlər"

8. "Kreditor borclar" - burada milli operatora satılmış mallara və göstərilmiş xidmətlərə görə kreditorlar qarşısında borclar göstərilir.

9. "Avans ödənişlər" - burada milli operatora edilmiş qabaqcadan ödənişlər göstərilir.

10. "Təxirə salınmış vergi öhdəliyi" - burada ödənilməmiş vergi öhdəlikləri göstərilir.

11. "Hesablanmış ödəniləsi faiz və dividendlər, cəmi" - burada 11.1, 11.2, 11.3, 11.4, 11.5 və 11.6 sətirlərinin cəmi avtomatik göstərilir:

11.1. bu sətirdə tələbli poçt əmanətləri üzrə ödəniləcək faizlər göstərilir;

11.2. bu sətirdə müddətli poçt əmanətləri üzrə ödəniləcək faizlər göstərilir;

11.3. bu sətirdə bankların hesabları üzrə ödəniləcək faizlər göstərilir;

11.4. bu sətirdə qiymətli kağızları üzrə ödəniləcək faizlər göstərilir;

11.5. bu sətirdə kommersiya borcları üzrə ödəniləcək faizlər göstərilir;

11.6. bu sətirdə digər əməliyyatlar üzrə ödəniləcək faizlər, yəni 11.1, 11.2, 11.3, 11.4 və 11.5 sətirlərindən başqa hesablanmış faizlər göstərilir.

12. "Barat əməliyyatları üzrə borc öhdəliyi" - burada barat əməliyyatları üzrə artıq ödəmələr göstərilir.

13. "Sair digər öhdəliklər" - burada bu cədvəldə sadalanan sətirlərə daxil olmayan bütün digər passivlər göstərilir.

14. "Digər Passivlər, cəmi" - burada digər passivlərin məbləğinin cəmi, yəni 8, 9, 10, 11, 12 və 13 sətirlərinin cəmi avtomatik göstərilir.

## CƏDVƏL PMO_3. Milli operator tərəfindən maliyyə institutlarında yerləşdirilmiş depozitlər və digər vəsaitlər haqqında hesabat (Əlavə 9)

Cədvəldə milli operator tərəfindən yerləşdirilmiş vəsaitlər barədə məlumat əks olunur. Cədvəldə aşağıdakı məlumatlar doldurulur:

1. "Milli valyutada maliyyə institutlarında yerləşdirilmiş depozitlər və digər vəsaitlər" - burada manatda yerləşdirilmiş vəsaitlər üzrə cəmi qalıq məbləği 3-cü sütunda avtomatik göstərilir. Vəsaitlərin yerləşdirildiyi təşkilatlar barədə sətirlər əlavə etməklə sütunlar üzrə aşağıdakı məlumatlar qeyd olunur:

1.1. 2-ci sütunda vəsaitin verildiyi və ya yerləşdiyi təşkilatın adı göstərilir;

1.2. 3-cü sütunda vəsaitin qalıq məbləği göstərilir;

1.3. 4-cü sütunda vəsait verilən və ya yerləşdirilən təşkilatın yerləşdiyi ölkə göstərilir;

1.4. 5-ci sütunda aktivin forması (məsələn, depozit) göstərilir;

1.5. 6-cı sütunda verilmiş və ya yerləşdirilmiş aktivin valyutasının növü göstərilir;

1.6. 7-ci sütunda verilmiş və ya yerləşdirilmiş aktivin faiz dərəcəsi (faizsizdirsə sıfır qeyd olunur) göstərilir;

1.7. 8-ci sütunda müqavilə üzrə vəsaitin verildiyi və ya yerləşdirildiyi tarix göstərilir;

1.8. 9-cu sütunda müqavilə üzrə vəsaitin ödənilmə (qaytarılma) tarixi göstərilir.

